## МЕТОДЫ РАБОТЫ ПО РАЗВИТИЮ МУЗЫКАЛЬНОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ ПЯТЫХ КЛАССОВ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ ПУТЁМ ИСПОЛЬЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКИХ МУГАМОВ

***Мамедова Гасира Тофик кызы***

***Резюме***

Классические Азербайджанские мугамы в корне отличаются от музыкальных образцов других народов своим глубоким философским содержанием и силой эмоционального воздействия на людей. Неслучайно в 2008 году одна из величайших ценностей Азербайджанского народа мугам, был включен ЮНЕСКО в список шедевров устного и нематериального культурного наследия человечества.

Азербайджанские мугамы имеют большие педагогические возможности в плане музыкального образования и музыкального развития школьников.

В связи с этим в статье рассматриваются методы работы по развитию музыкального воспитания пятиклассников путем использования Азербайджанских мугамов.

## AZERBAIJANI MUGAMS AS THE MEANS OF FORMING SCHOOLSHILDREN`S ARTISTIC TASTES AND MORAL QUALITIES

***Mammeadova Qasira Tofiq***

***Summary***

In the article it is dealt with scientific, pedagogical. Psechological and methodical basis listening to mugams in music lessons, their learning and propagating. The author criticizes that professionals who graduated the profession of music teacher don`t want to go to villages and regions, music lessons are taught by other profession teachers, and explains the problems of teaching mugams arisen from that reason. Explaining the essence of the work done to solve the very problems the author of the article gives some valuable recommendations to music teacher. She considers mugams as the means of forming both artistic and moral qualities.

In the article also scientific innovations are proposed for and the articlele`s practical significance and applied opportunities are explained.

***Rəyçi: Məmmədova Rəşidə***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT:781**

## FREDERİK ŞOPENİN YARADICILIĞINDA RƏQS MUSİOİSİ VƏ MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNDƏ ONDAN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

***Şabanova Sevil Ağaəli qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:***Məqalədə görkəmli bəstəkar və pianoçu Frederik Şopenin yaradıcılığında rəqs musiqisi və məktəblilərin musiqi tərbiyəsində ondan istifadənin imkan və yolları araşdırılır. Polşa milli musiqisinin klassiki F.Şopenin yaradıcılığı əsasən fortepiano musiqisindən ibarətdir. Bəstəkar bu alətin ifadə imkanlarını genişləndirmiş, onda elə zəngin boyalar tapa bilmişdir ki, o, bütöv orkestri əvəz etmişdir. F.Şopen milli polyak rəqsləri olan polonez və mazurkaya öz fortepiano yaradıcılığında yeni həyat vermişdir. F.Şopen böyük novator, orijinal musiqi janrının və formalarının yaradıcısıdır.*

*Məktəblilərin musiqi tərbiyəsində F.Şopenin fortepiano əsərlərindən geniş istifadə etməklə, onların vətənpərvər ruhda yetişmələrinə nail olmaq olar.*

**Açar sözlər:** Şopen, bəstəkar, mazurka, polonez, vals
**Ключевые слова:** Шопен, композитор, мазурка, полонез, вальс
**Key words:** Chopin, composer, mazurka, polonaise, waltz

Dahi bəstəkar F.Şopenin yaradıcılığı romantizm incəsənətində xüsusi yer tutur. O, bir sənətkar, vətəndaş kimi öz xalqının azadlıq mübarizəsi dövründə təkmilləşmişdir. F.Şopenin yaradıcılığı əsasən fortepiano musiqisindən ibarətdir. Başqa alətlər üçün bəstəkar çox az əsərlər yazmışdır. Fortepiano aləti F.Şopen üçün universal alətdir. Bu alət vasitəsilə bəstəkar qəlbinin sirrini, fikrini, dövrünün qabaqcıl hadisələrini ifa edirdi. F.Şopenin ustalığı ondan ibarətdir ki, o bir alətdə həm orkestrin səslənməsini, həm də insanın ifadəli səsini və sözünü göstərməyi bacarırdı. Onun fortepiano musiqisi danışır, oxuyur.

F.Şopen romantizm incəsənətinə yeni mövzu və motiv gətirmişdir. Bu mövzu Şopenin Vətən məhəbbətindən, vətən həsrətindən irəli gəlirdi. F.Şopen əsərlərində vətənin təbiətini, xalqının gələcəyini, tarixini, adət və ənənlərini əks etdirir. Vətən mövzusu, vətənpərvərlik bəstəkarın fortepiano üçün yazdığı ballada, sonata, skertso və fantaziyalarında öz əksini tapır. F.Şopenin melodiyası çox lirik və yaddaqalandır. Bəstəkarın konsert əsərlərinə mazurka və polonezlərin elementləri daxil olub, Vətən simvolu kimi səslənib.

F.Şopen sənətini xarakterizə edən bir əhəmiyyətli ünsür də onun ömrü boyu xoşbəxtliyini, azadlığını, müstəqilliyini arzuladığı vətəni Polşaya olan əbədi bağlılığı idi. Vətəninin acı taleyi, azadlıq uğrunda apardığı mübarizələri, işıqlı gələcəyinə inam hissi, eyni zamanda vətəninə olan mənəvi bağların əbədi olması hissi bu əsərlərin melodiyalarında, intonasiyalarında, ritmik xüsusiyyıtlərində özünü bariz bir şəkildə göstərmişdir. O, milli melodiyalar,  mazurka, polonez kimi oyun havalarından fortepiano alətinin imkanlarına uyğun olaraq istifadə etmiş və bu əsərləri ümumbəşəri bir səviyyəyə çatdırmışdır [3. 98-99].

F.Şopenin yaradıcılığında rəqs musiqisi özünəməxsus yer tutur. Bəstəkar 58 mazurka, 21 polonez, 18 valsın müəllifidir.

Mazurka ən populyar polyak  xalq rəqsidir, 3/4 ölçülü mülayim templidir.  Bəstəkar üçün mazurka janrının özü bir növ Vətən rəmzinə çevrilmişdir. "Hətta tənqidçilərin yazdığına görə bəstəkarın ən son əsəri də mazurka olmuşdur" [3. 111].

F.Şopen xalq rəqsinə xas xüsusiyyətləri saxlamağa çalışmaqla  birlikdə, onun konsert ifaçılığı üçün tələb olunan və rəqsə xas olan potensial-estetik xüsusiyyətlərini pianonun geniş imkanlarından istifadə edərək üzə çıxara bilmişdir.

Məşhur rus bəstəkarı N.A.Rimski-Korsakov F.Şopenin böyük melodiya və harmoniya ustası olmasını qeyd etmişdir. F.Şopen bir yenilikçi sənətkar olaraq öz əsərlərində rəqs musiqisindən istifadə etməklə forma, quruluş və s. baxımdan yeniliklərə səy göstərmiş, rəqslərin müstəqil bir musiqi janrı kimi meydana gəlməsinə nail olmuşdur [3.112].

Polonez qədimdən  polşa cəngavər döyüşçülərinin təntənəli yürüşünü müşayiət edən musiqi olmuşdur. XVII əsrdə polonez bal açılışlarında ifa edilən rəqs kim bütün Avropada yayılmışdır. Polonez üçün 3/4 ölçü səciyyəvidir. Məşhur polşa bəstəkarı M.K.Oqinski müəllifi olduğu "Musiqi haqqında məktublar" adlı kitabında F.Şopenin polonezlərinin rəqs üçün yazılmaması fikrini xüsusi olaraq vurğulamışdır. Onun bu kiçik ölçülü əsərlərinin estetik dəyəri sərhədsizdir. Onların hər birində xalqın dərin kədəri, qəmi, nifrət hissləri, azadlıq mübarizəsi, vətənpərvərliyi, işıqlı gələcəyə dərin inancı, bir sözlə xalqının mənəvi dünyasının müxtəlif tərəfləri əks olunmuşdur. Son dərəcə yüksək-peşəkarlıq və bədii ustalıqla yazılmış bu əsərlərdə mütəxəssislər fortepiano ifaçılıq mədəniyyətinin yeni səhifəsini görməkdədirlər. Təsadüfi deyil ki, bu baxımdan F.Şopeni "pianonun Koperniki" adlandırırlar [3.112].

F.Şopenin polonezlərində mazurkalardan fərqli bədii obrazlar ifadə olunmuşdur. Bu obrazlar xalqın qədim keçmişini, onun qəhrəmanlıq tarixini əks etdirir.

Əsasən XIX əsrdən başlayaraq xalq arasında geniş vüsət tapmış  polonezlər F.Şopen yaradıcılığında yeni bir estetik xüsusiyyət qazanmış və konsert ifaçılığı üçün nəzərdə tutulmuşdur. F.Şopenin lirik və dramatik xüsusiyyətlər daşıyan bir çox polonezləri məlumdur,

lakin ən çox yayılmış və dünyanın bir çox ölkələrində tez-tez müxtəlif mərasimlərdə, bayram şənliklərində səslənən Lya major (Əs.40, №1) Polonezidir. Bəstəkar pianonun geniş imkanlarından və diapazonundan, fortissimo (olduqca güclü səslənmə), triol kimi ifadə - təsvir vasitəsindən, zahirən sadə görünən lakin ifası zamanı olduqca möhtəşəm səslənən akkordlardan yaradıcılıqla istifadə edə bilmişdir. Ümumiyyətlə əsərin səsləndirilməsi bir orkestr səslənməsini xatırladır və təsadüfi deyil ki, müasir dövrümüzdə də bu Polonezin tez-tez müxtəlif orkestrlər tərəfindən ifasının şahidi oluruq.

Şopenin yaradıcılığında vals da mühüm yer tutur. Bu valslar konsert pyesləri olub, məzmun etibarilə zəngin və rəngarəngdir. F.Şopenin valsları əksər halda müxtəlif xarakterli bir neçə mövzu-epizoddan ibarətdir. Bəstəkarın lirik do-diyez minor valsı geniş şöhrət qazanmışdır. Kiçik poemaya bənzəyən valsın gah süzgün, çevik, gah da coşğun melodiyası poetik əhval-ruhiyyə yaradır.

Musiqi estetik tərbiyənin vasitələrindən biridir. Şagirdlərin estetik formalaşmasında musiqinin rolu böyükdür. Musiqi ən qüvvətli təsir gücünə malik incəsənət növüdür. L.Feyyerbax qeyd etdiyi kimi, musiqi sənə xoş gəlir, ona görə ki, sən orada öz qəlbinin səsini eşidirsən [2. 25-26].

Şagirdlər musiqi əsərlərini qavramaq üçün musiqi dinlənilmə vərdişlərinə, müəyyən musiqi savadına və musiqi təcrübəsinə malik olmalıdırlar. Musiqi dinlənilməsində müəllimin bəstəkar və onun əsəri haqqında şifahi şərhinin böyük rolu var. Uşaqlar rəqs etməyi çox sevirlər. Onlara mazurka, polonez, vals kimi rəqslər haqqında ətraflı məlumat verilməsi və “Musiqi” dərslərində F.Şopenin bu əsərlərinin səsləndirilməsi məqsədəuyğundur.

Vətənə sonsuz sevgi hissləri F.Şopenin bütün əsərlərinin ana xəttini təşkil edir. Bununla əlaqədar F.Şopenin yaradıcılığına və əsərlərinə musiqi dərsliklərinin “Dinləmə” bölümündə görkəmli polyak bəstəkarı və pianoçusu daha geniş yer verməklə şagirdlərdə vətənə, onun təbiətinə, xalqına, tarixinə, adət və ənənələrinə dərin hörmət və məhəbbət hissləri tərbiyə etmək mümkündür.

### *Ədəbiyyat*

Həsənova Ş. Musiqi tarixindən mühazirələr, I hissə Bakı, 2008.
Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, 2010.
Qurbanov B. Musiqi dünyasının unudulmazları Bakı, 2015.
**Rus dilində:**
Друскин М. История зарубежной музыки. Вып. 4. Москва,1975.
Музыкальная энциклопедия. Сов. Энциклопедия. Москва, 1973.
Мазель А.А. Исследования о Шопене. Москва, 1971.
Мильштейн М.И. Очерки о Шопене. Москва, 1987.
Николаев В. Шопен-педагог. Москва, 1980.
Соловцов А. Фредерик Шопен: Жизнь и творчество. Москва, 1960.

***Шабанова Севиль Агаали кызы***

***Резюме***

В статье анализируется танцевальная музыка знаменитого польского композитора и пианиста Ф.Шопена и исследуются пути и возможности использования её в музыкальном воспитании школьников.

Творчество Шопена в основном посвящено фортепианной музыке.

Использование фортепианной музыки Ф.Шопена в процессе музыкального воспитания школьников развивает у них чувство патриотизма и любовь к Родине.

## THE USE OF F. CHOPIN'S DANCE MUSIC IN MUSICAL UPBRINGING OF STUDENTS

***Shabanova Sevil Aqali***

***Summary***

In this article the importance of piano miniatures in F.Chopin's work is emphasized. Significant place is given to dance genres, which were clearly indicated in piano miniatures of composers: mazurka, polonese, waltz. Chopin demonstrates endless posibilities of damcing genre as a way to show inner world of human beeing. Mazurka is the only genre in the works of Chopin which he constantly chose. It became comppser's mirror of the soul.

***Rəyçi: Məhərrəmova Gültəkin***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT:781.**

## OQTAY ZÜLFÜQAROVUN UŞAQ MUSİQİ TƏRBİYƏSİNDƏ ROLU

***Məmmədova Rəşidə Hamlet qızı***
***Gəncə Dövlət Universiteti***
***rashida.mamedova.68@mail.ru***

**Xülasə:** *Oqtay Zülfüqarov Azərbaycanın ən böyük uşaq bəstəkarlarından biri kimi tanınmışdır. Bəstəkar ömrünün 60 ilindən çoxunu uşaq mahnılarının yazılmasına, musiqi tərbiyəsinin inkişafına həsr etmişdir. Uşaqlara daim böyük sevgi və həssaslıqla yanaşan Oqtay Zülfüqarov onlar üçün şən, gözəl mahnı nümunələri yaratmış və neçə-neçə nəsil bu mahnılarla böyümüşdür. Bu baxımdan onun çoxşaxəli irsi və fəaliyyəti Azərbaycan bəstəkarlıq musiqisi tarixində müstəsna bir yerə malikdir.*

*Oqtay Zülfüqarov mahnıdan tutmuş uşaq operasına kimi, habelə kiçik kollektivlərdən başlamış uşaq teatrının yaradılmasına qədər davamlı, səmərəli və çoxşaxəli fəaliyyət göstərmiş, ömrünün sonuna kimi məhz bu sahəni özünün əsas, birinci dərəcəli işi hesab etmişdir.*

*Oqtay Zülfüqarov uzun müddət Azərbaycan televiziyasında çalışmış, kino və teatr sənətinə öz layiqli töhvəsini vermişdir.*

**Açar sözlər:** Musiqi, mahnı, bəstəkar, məktəbli, tərbiyə
**Ключевые слова:** Музыка, песня, композитор, школьник, воспитание
**Key words:** Music, song, composer, student, education

Öz təsirliyinə və geniş yayılmasına görə mahnı janrı və bu janrda yaradılan müxtəlif xarakterli sənət əsərləri uşaqların hərtərəfli inkişafında mühüm tərbiyəvi əhəmiyyətə malikdir.

O.Zülfüqarov uşaqlar üçün ilk mahnılarını hələ musiqi texnikumunda oxuduğu illərdə yazır. Bəstəkarın melodik istedadı, şeirlə işləmək, musiqi fikrini lakonik ifadə etmək qabiliyyəti, bitkin forma duyumu mahnı janrında uğurla çalışmaq üçün yaxşı zəmin yaradırdı. Eyni zamanda bəstəkar yaxşı anlayırdı ki, mahnı janrında işləmək üçün xalq mahnı yaradıcılıgının qayda-qanunlarına dərindən yiyələnmək, eləcə də XX əsrin 20-30-cu illərində də bəstəkar yaradıcılığında meydana gəlmiş kütləvi mahnı janrının dil-üslub keyfiyyətlərini yaxşı mənimsəmək lazımdır. Bu tərz yaradıcılıq məsələlərini həll etmək üçün o, Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində oxuyarkən akademik musiqi janrlarında işləməklə yanaşı, mahnı janrında, ələlxüsus da uşaq musiqisi istiqamətində axtarışlar aparır və bir sıra maraqlı nəticələr əldə edir. Artıq bu illərdə şair həmkarı Teymur Elçinin sözlərinə bəstələnmiş “Sayıram onacan”, “Lay-lay”, “Can nənə”, Abdulla Şaiqin sözlərinə “Xoruz”, “Oynayaq top-top” mahnıları uşaq musiqi mühitində geniş yayılır.